Ədəbiyyat Qəzeti

17 iyul / 2021

# Aləmzər SADIQQIZI - 60



Hörmətli Aləmzər xanım!

Sizi - istedadlı şair-publisisti 60 illik yubileyiniz münasibətliə təbrik edirik.

Siz 1961-ci il iyulun 15-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Aşağı Aralıq kəndində anadan olmusunuz. Qarxun kənd orta məktəbinin bitirdikdən sonra, 1985-1987-ci illərdə Bakı Mədəni-maarif texnikumunun kitabxanaçılıq şöbəsində təhsil almısınız.

Şərur rayonunda Mərkəzləşmiş kitabxana sistemində, "Şərurun səsi" qəzetində və digər qəzetlərdə ədəbi işçi, müxbir vəzifələrində çalışmısınız.

Bədii yaradıcılığa erkən başlamısınız. İlk mətbu yazınız - "Bu gün toyundur sənin" adlı mənsur şeiriniz 1984-cü ildə "Azərbaycan qadını" jurnalında dərc olunmuşdur. "Şərurun səsi" qəzetində müxtəlif səpkili yazılarla çıxış etmisiniz. "Günəş Şərurdan keçir", "İlhamla çağlayır, Şərur bu gün də" ədəbi almanaxında silsilə miniatür hekayə və mənsur şeirləriniz çap olunmuşdur. "Bu gün toyundur sənin" ("Umman" nəşriyyatı, 1998) və "Qəmi özündən böyük dünya" ("Şirvannəşr", 1999) və s. kitablarınız kütləvi tirajla buraxılmışdır.

Hörmətli Aləmzər xanım!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, cansağlığı, yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**